# Əməkdaşlıq Memorandumu

**Bu Memorandumda "Tərəflər" adlandırılan**

**Birinci tərəf:** Direktor cənab Kərim Tahirov tərəfindən təmsil olunan Azərbaycan Milli Kitabxanası

**İkinci tərəf:** Direktor cənab Teymur Kərimli tərəfindən təmsil olunan Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu

**Üçüncü tərəf:** Direktor cənab Driss Khrouz tərəfindən təmsil olunan Mərakeş Krallığının Milli Kitabxanası.

## Preambula

Ümumu maraq və vəzifələrini nəzərə alaraq hər üç təşkilat (bundan sonra Tərəflər adlandırılacaq) üçtərəfli münasibətlərin möhkəmləndirilməsi məqsədi ilə bu Əməkdaşlıq Memorandumunu imzalamaq niyyətini nümayiş etdirdilər.

## Maddə 1

Bu saziş birgə fəaliyyətləri əlaqələndirmək və inkişaf etdirmək məqsədi ilə Tərəflər arasında əməkdaşlığın əsas çərçivəsini müəyyən edir.

Bu Memorandumdan irəli gələn fəaliyyətlər maliyyə, inzibati və texniki müddəaların, həmçinin onların həyata keçirilməsi istiqamətində imza edən tərəflərin qarşılıqlı öhdəliklərinin əks olunduğu illik əlavə əsasında həyata keçiriləcəkdir.

## Maddə 2

Tərəflər səlahiyyətləri çərçivəsində xüsusilə aşağıdakı sahələrdə işləyəcəkləri barədə razılığa gəlirlər:

- Elektron kitabxanalar və elektron kataloqlardan qarşılıqlı istifadə;
- Beynəlxalq kitab mübadiləsinin inkişaf etdirilməsi;
- Nadir kitabların və əlyazmaların qorunması, bərpası və saxlanılması texnologiyaları;
- Nadir kitablar və əlyazmalar haqqında informasiya mübadiləsi;
- Mədəni və elmi fəaliyyətlərin təşkil edilməsi;
- Təcrübə və işçi heyətin mübadiləsi;
- Kitabxana biblioqrafiyası proseslərinin avtomatlaşdırılması;
- Mütəxəssislər üçün məşğələlərin təşkil edilməsi.

D. K.T.

**Maddə 3**

Tərəflər 15 gündən artıq olmayan müddətə kitabxanaçıların mübadiləsi barədə razılığa gəlirlər.

Yerləşdirmə xərcləri (mehmanxana və gündəlik xərcləri) qəbul edən ölkə, yol xərcləri göndərən ölkə tərəfindən ödəniləcəkdir.

Kitabxanaçıların sayı hər il qarşılıqlı olaraq müəyyən ediləcəkdir.

**Maddə 4**

Tərəflər arasında münasibətlərin səmərəliliyinin və funksionllığının artırılması məqsədi ilə hər üç təşkilatın bərabər sayda nümayəndələrindən ibarət olan birgə komitə təşkil edilmişdir.

Komitə müzakirələri, birgə həyata keçirilməsi olan fəaliyyətlərin hazırlanması, icrası və qiymətləndirilməsini təşkil edir. Birgə komitə ildə bir dəfə və ya Tərəflərdən birinin xahişi əsasında toplanılır.

**Maddə 5**

Bu əməkdaşlıq Memorandumu Tərəflərin onu imzaladağı tarixdən etibarən 2 il müddətində qüvvədə qalır və Tərəflərdən biri Memorandumun müddətinin başa çatmasına 6 ay qalmış onu ləğv etmə niyyəti barədə digər Tərəfə yazılı bildiriş vermədiyi təqdirdə növbəti 3 il müddətinə uzadılır.

**Maddə 6**

Bakı şəhərində 07 aprel 2015-ci il tarixində ingilis, ərəb və Azərbaycan dillərində üç əsl nüsxədə imzalanmışdır, onların hər biri bərabər autenikdir. Hazırkı protokolun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

| | | |
|---|---|---|
| Azərbaycan Milli Kitabxanasının direktoru | Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutunun direktoru | Mərakeş Milli Kitabxanasının direktoru |
| Prof. Kərim Tahirov | Akad. Teymur Kərimli | Prof. Driss Khrouz |